***Ölkəmizin "Cənub qapısı" sayılan Astara hər zaman özünün qəhrəman oğulları ilə fəxr edib. İkinci Dünya müharibəsində göstərdikləri igidliklərə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş Ziya Bünyadov, Mirzə Cəbiyev və İlya Kaverinin, eləcə də üç "Şöhrət" ordenli Ağasən Nəhmətovla Rəhmət Həsənovun və digərlərinin adları daim uca tutulur. Azərbaycanın ərazi bütövlüyü uğrunda şanlı mübarizədə də Astara igidləri fəal iştirak ediblər. Onlardan 124 nəfəri müqəddəs şəhidlik zirvəsinə ucalıb. İki nəfərin – Yalçın Nəsirovla Rövşən Abdullayevin şücaəti Azərbaycanın Milli Qəhrəman adı ilə şərəfləndirilib. 44 günlük Vətən müharibəsində isə 41 astaralı gənc canından keçib.***

# Astarada şəhid ruhlarına böyük ehtiram bəslənilir




Astara rayonunun rəhbərliyi bir qayda olaraq şəhid ruhlarına ehtiram nümunəsi göstərir, qazilərin qayğılarının hərtərəfli həllinə çalışır. Rayonda qəhrəmanlıq ənənələrinin yaşadılması sayəsində hünər və rəşadət estafeti nəsildən-nəslə layiqincə ötürülür. Vətən müharibəsi qələbə ilə başa çatdıqdan dərhal sonra rayon mərkəzindəki Şəhidlər xiyabanının yenidən qurulmasına, həmçinin "Zəfər parkı"nın yaradılmasına başlanıb və bu işlər yüksək zövqlə sona çatdırılıb.

Rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev Hamoşam kəndində Sovet İttifaqı Qəhrəmanı Mirzə Cəbiyevin anım günü ilə əlaqədar onun məzarını ziyarət edib, önünə əklil qoyub. Mirzə Cəbiyevin şərəfli ömür yolu burada yaşayan gənclər üçün bir nümunədir. Təsadüfi deyil ki, Hamoşam kəndinin Qarabağ müharibəsində verdiyi şəhidlərdən biri – Çinar Əliyev qəhrəmanın doğma nəvəsidir.

Yenidən qurulmuş Şəhidlər xiyabanında Birinci Qarabağ və Vətən müharibəsində, Aprel döyüşlərində həlak olan astaralı şəhidlərin xatirəsi əbədiləşdirilib. Xiyabanda "Ana" heykəli, "Əbədi məşəl" abidə-kompleksi inşa olunub, 500 kvadratmetr ərazidə döşəmənin tamet daşları dəyişdirilib, pilləkənlər, divarlar mərmər, yan divarlar qranit daşlarla üzlənib.

Şəhidlər xiyabanının ziyarətçiləri arasında vüqarlı bir ağsaqqal diqqətimizi cəlb etdi. Tanış olduq. Bu, şəhid Telman Nəhmətovun atası Tərlan kişi idiu. Ürək sözlərini bizimlə bölüşdü:

–Uzun illər idi ki, Azərbaycanın ərazi bütövlüyü pozulmuşdu. Yurddaşlarımız dədə-baba ocaqlarına həsrət qalmışdılar. Amma inanırdıq ki, qisas qiyamətə qalmaz. Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız, nəhayət, bizə böyük zəfər sevincini yaşatdı. Ötən il sentyabrın 27-də başlanan "Dəmir yumruq" əməliyyatı sayəsində 44 gün ərzində qələbə sevincinə qərq olduq. Şəhid atası olmağımla fəxr edirəm. Dövlətimiz şəhidlərin adını hər zaman urvatda tutur. Buna görə cənab İlham Əliyevə həsdiz minnətdarıq.

Şəhid Rövşən Ramazanovun anası Gülnar Ramazanova da həvəslə söhbətə qoşuldu.

–Övladlarımız vətən uğrunda döyüşlərdə şəhid olmaqla cənnətin əbədi sakinləri oldular. Dövlət və hökumətimiz onların ruhuna böyük ehtiram göstərir. Elə rayonumuzun rəhbərliyi də bu həssas məsələdə çox diqqətlidir. Şəhid ailələri, qazilər hərtərəfli qayğı ilə əhatə olunublar. Şəhidlərin hamısının mövlud günləri qeyd edilir, xatirələri əziz tutulur. Qayğı göstərib savab iş görənlər var olsunlar!

... Vətən müharibəsində Astara rayonundan yüzlərlə gənc iştirak edib, 41 nəfər şəhid olub, 138 nəfər yaralanaraq sağlamlığını itirib. Onların hünəri böyüyən nəsil üçün əsl örnəkdir. Azərbaycan xalqının və ordusunun möhtəşəm tarixi zəfərini özündə əks etdirən, müasirliyi ilə seçilən, xüsusi dizaynla inşa edilmiş xatirə abidəsi silahlı qüvvələrimizin yaranması günü ərəfəsində – 25 iyun 2021-ci il tarixdə istifadəyə verilib. İndi bura da əsas ziyarət yeri, vətənpərvərlik ünvanıdır. Açılış mərasimindəki çıxışında Qəzənfər müəllim qeyd edib ki, yaşadığımız bu sevincli günlər üçün şəhidlərimizə, qazilərimizə və bütün döyüşçülərimizə borcluyuq. Onlar tərəddüd etmədən, göz qırpmadan canlarını fəda edərək erməni faşistlərinin zaman-zaman xalqımızın başına gətirdikləri müsibətlərin artıqlaması ilə qisasını aldılar. Bizə bu qüruru yaşadan şəhidlərimizə Allahdan rəhmət diləyir, ruhları qarşısında baş əyir, belə qəhrəman övladlar böyütmüş bütün valideynlərə dərin hörmət və ehtiramımızı bildiririk.

Həmin gün Zəfər parkında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə Vətən müharibəsində qəhrəmanlıqla döyüşmüş hərbi qulluqçulara təltif edildikləri müxtəlif orden və medallar da təqdim edilib. Tədbirin ən kövrək məqamı isə icra başçısının şəhid polkovnik-leytenant Nail Orucovun təltif olunduğu "Azərbaycan Bayrağı" ordenini və "Vətən uğrunda" medalını onun oğlu İbrahimin döşünə taxaraq atası ilə bütün Azərbaycan xalqının fəxr etdiyini, qürur duyduğunu bildirdiyi anlar olub.

Astaranın kəndlərində də şəhid adlarının əbədiləşdirilməsi üçün addımlar atılıb. Məsələn, Sıncərədi kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi birinci Qarabağ müharibəsində 5, ikinci Qarabağ müharibəsində 12 nəfər şəhid verib və burada yaraşıqlı bir "Zəfər guşəsi" yaradılıb.

Bütün bunlar barədə danışan rayon icra hakimiyyətinin şöbə müdiri, şair dostum, şəhidlər haqqında yazılmış "Əbədiyyət yolçuları" kitabının müəllifi Mərasim Hacızadə iftixarla bildirdi ki, haqqında əfsanələr dolaşan qəhrəmanlarımızdan biri də şanlı Aprel döyüşlərinin şəhidi, ələkeçməz kəşfiyyatçı Pəncəli Teymurov olub. Təkbaşına 20 nəfər erməni faşistini cəhənnəmə vasil etdiyinə görə, düşmənlər onun başına külli miqdarda pul qoymuşdular. Daha bir qürur məqamı odur ki, işğal altında olmuş rayonların azad edilməsi barədə müzəffər Ali Baş Komandana raport verənlərdən biri həmyerlimiz, Ağdamda xidmət edən xüsusi təyinatlı kəşfiyyat rəisi, Azərbaycan Silahlı Qüvvələrinin mayoru, şiyəkəranlı Riyad Paşayev olub. Mayor Paşayev Ağdam rayonunun işğaldan azad olunmasını məruzə etməklə, xalqımızı da müjdələyib və deyib: "Azərbaycan Bayrağı Ağdam şəhərində dalğalanır!" Bu sözlər hər kəsin qəlbini sonsuz iftixarla döyündürüb. Yeri gəlmişkən, Riyadın qardaşı Əhməd Paşayev də Vətən müharibəsinin ilk günlərindən döyüşlərə atılıb və igidlik göstərib.

Bəli, Vətən müharibəsinin başlandığı 27 sentyabr və sonrakı 44 gün ərzində xalqımız öz tarixinin ən parlaq səhifələrini yazıb. Bu qəhrəmanlıq nümunələrində Astara rayonunu igidlərinin də hünər payı var.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***